BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2015

**UOT 654.191:707**

# AUDİOPUBLİSİSTİKA NƏZƏRİ ARAŞDIRMALARDA

**Ş.M.QULİYEVA**
***Bakı Dövlət Universiteti***
***selale_meh@mail.ru***

*Dünyada radionun yaranması, təşəkkülü, audiopublisistikanın inkişafı tədqiqatçıların diqqət mərkəzində olub. Alimlər sehrli qutunun gələcəkdə hansı məqsədlərə xidmət edəcəyi barədə müxtəlif fərziyyələr irəli sürüblər. Radio ilə bəşəriyyətdə elmi-texniki tərəqqinin əsası qoyulub. İnsanların informasiya əldə etdikləri ilk kommunikasiya vasitəsi olub. Bugünkü gündə də müasir texnologiyanın bünövrəsi hesab olunur. Tədqiqatçıların daim diqqət mərkəzində olan radio öz publisistikasına, xarakterik xüsusiyyətlərinə, canlı efir ünsiyyətinə və danışıq dilinə görə fərqlənir. Radiopublisistikanın üç növü var. İnformativ publisistika, analitik publisistika və bədii publisistika. Hər bir publisistika növü isə janrlara ayrılır.*

**Açar sözlər:** audiopublisistikanın ilk araşdırmaçıları, radio nəzəriyyəsi, radionun tədqiqat obyekti, efir dili, ilk informasiya mənbəyi

Audiopublisistika - dinləyicinin radiodan eşitdiyi efir söhbəti, bir qrup sənətkarın (redaktor, montaj operatoru, səs rejissoru, aparıcı və s.) birgə yaradıcılığının nəticəsi olan audioveriliş deməkdir. Qəzeti oxuyarkən oxucu informasiyanı gözlə beyinə ötürürsə, radiodan dinlədiyi məlumatlar eşitmə duyğusu vasitəsilə qavranılır. Özünəməxsus spesifik xüsusiyyətlərə malik olan audiopublisistikada sözün nöqtəsi, vergülü, durğu işarəsi danışanın ifadə tərzindən hiss edilir. Sözün musiqi və səs lövhələri ilə bəzənərək - səs elementlərinin vahid məcmusu rolunda dinləyicidə insan xarakteri ilə bağlı təsəvvür assosiasiyası yaratması audiopublisistikanın özəlliyidir....

Sənədli radio mətnlərinin-radiopublisistikanın informasiya, analitik və bədii hissələrə ayrılması məlumatın strukturuna və funksiyasına əsaslanır. Əgər informasiya janrı fakta əsaslanan xəbərin özəyini təşkil edirsə, analitik publisistikanın funksiyası baş verən fakt və hadisələrin təhlilidir. Bədii publisistikanın məqsədi isə ayrıca götürülmüş faktlar əsasında ümumi və tipik əlamətlərin fonunda bədii obrazın yaradılmasıdır.

Analitik və bədii publisistika (söhbət, icmal, şərh, korrespondensiya,

oçerk, zarisovka, esse, felyeton, pamflet) janrlarında hazırlanan publisistik əsərlərin strukturunda, süjet və kompozisiyanın quruluşunda müəllifin ideyaları dayanır. Janrın spesifik tələblərinə diqqətlə yanaşmaq bütövlükdə sənət əsərinin dolğun əks olunması ilə nəticələnir. Məsələn, analitik publisistikaya aid olan şərh zamanı fakta əsaslanan, müşahidə etdiyi hadisənin səbəblərini aşkar edən, ümumiləşmiş nəticə çıxaran, bir fakta istinad edərək çoxlu məntiqi dəlillər yürüdən, səbəblərin ardıcıllığını çərçivə daxilində, yəni ayrılan efir dəqiqələrinə nizamlayan və onun ictimai əhəmiyyətinə toxunan şərhçi efirdə aktual mövzudan peşəkarlıqla söhbət aça bilər.

Verilişlərin sənədli olması, faktlara söykənməsi, real aləmi özünəməxsus tərzdə ifadə etməsi onun spesifik xüsusiyyətidr və dinləyicinin informasiya təminatçısı rolunda çıxış edir. Hansı formada yayımlanmasına, hansı janrda işlənməsinə baxmayaraq hər birində publisistik ünsürlərə rast gəlinir. İrihəcmli informasiya verilişlərində informativ və analitik publisistika ilə yanaşı, həm də bədii publisistikaya da bərabər şəkildə müraciət olunur.

1989-cu ildə Azərbaycan radiosunda hazırlanan "Səhər" informasiya proqramını buna misal çəkmək olar. Ölkənin radio tarixində ilk veriliş idi ki, mövzuya adekvat yanaşmaq mümkün olmuşdu. Uzun illərin durğunluq illərindən sıxılan təcrübəli radiojurnalistlər müstəqillik illərinin astanasında həsrətində olduqları sərbəst fikir söyləmək fürsətini çoxdan gözləyirmiş kimi, hadisələrə müxtəlif rakurslardan baxır, fərqli aspektlərdən yanaşır, publisistik təhlildən keçirirdilər. Həmin illər televiziyanın deyə bilmədiyini radio çox asanlıqla deyir və xalqın bir nömrəli informasiya mənbəyi rolunda çıxış edirdi. Bu yeganə radio verilişindən bir saat müddətində yayımlanan xəbərlər, şərhlər, siyasi analitik çıxışlar dinləyici üçün ona görə maraqlı idi ki, qarışıq situasiyadan (dünyada erməni lobbisinin Azərbaycan əleyhinə çıxışları, SSRİ-nin başçısı Qorbaçovun ermənilərə havadar çıxması, xalqımıza qarşı məkrli niyyətlər, Qarabağda müharibənin başlanması və s.) narahatlıq keçirən xalq ziyalı mövqeyini bilmək üçün efirə diqqət kəsilmişdi. "Səhər" informasiya proqramı radiojurnalistikanın yeni nəfəsi, müstəqillik dövrünün ilk radiopublisistikası və Azərbaycanın efir tarixində ilk dönüş nöqtəsi idi. Bir saatlıq verilişdə informasiya analitik təhlil olunur və həm də dinləyicinin usanmaması üçün arada musiqi nömrələri səslənir, bir sözlə təbliğat məqsədi güdən informasiyanın şüurlara yeridilməsindən ötrü yeni jurnalist sənətkarlığının məziyyətləri ortaya çxır.

Sovet publisistikası haqqında irəli sürülən nəzəriyyələrdə partiya təbliğatçılığında önəmli rolunu, siyasi proseslərin ictimaiyyətə çatdırılması istiqamətində əsas təsir vasitəsi olduğunu sübut etməyə çalışan alimlərin bu barədə düşüncələri dövr dəyişəndən sonra özünü doğrultmadı. Zamanın siyasi gedişatı publisistikanın tək hakim bir partiyaya deyil, bütövlükdə cəmiyyət həyatına aidliyini üzə çıxartdı. Auditoriya ilə sıx əlaqələrin yaranması, dinləyicinin hansı mövzunu eşitmək istəyi gündəmə gələndən sonra, yəni SSRİ-nin tərkibində olan ölkələrin böyük dövlətdən ayrılaraq müstəqillik qazandıqları vaxtlardan

radio aləmində yeni səhifə açıldı...

Radiopublisistika inkişaf mərhələlərində hadisə, analitika, bədii sahələrə bölünərək mövzuya fərqli aspektlərdən yanaşıb. Siyasi, iqtisadi, əxlaqi-etik, ədəbi-tənqidi mövzular müxtəlif janrlarda polemik, təbliğati, tənqidi-analitik, satirik üslublarla nümayiş olunub. "Bir qayda olaraq cari hadisələrdən bəhs edən və konkret bir insanın, xalqın, ölkənin müəyyən bir dövrə aid problemlərini, cari həyatda baş verən hadisələri təsvir edən publisistikanı" emprik səviyyədə jurnalistikanın mövzusu hesab edən professor S.Xəlilov "Baxış bucağı: fəlsəfi publisistika" və "Həyatın özü və görünən üzü; fəlsəfi və ədəbi-bədii publisistika" kitablarında publisistika anlayışına fəlsəfi diqqət çəkir. Radiopublisistikanın fəlsəfəsi - canlı insan səsləri, zamanın tarixi anlarının əks olunduğu, keşmiş hadisələrin ruhunu yaddaşlarda yaşadan və gələcəyə ötürən səs salnaməsidir...

Radiojurnalistikanın nəzəri problemləri haqında ilk dəfə Almaniyada şair, rejissor, dramaturq, teatr sahəsində islahatçı Bertolt Brext silsilə məqalələr yazıb (1, 21). Əvvəlcə onun bədii əsərləri alman radiosunun rejissoru Alfred Braunun diqqətini çəkir və əməkdaşlıq üçün efirə dəvət olunur. Nəticədə Brext tez bir zamanda məşhur simalardan birinə çevrilir. Ona şöhrət gətirən radio haqqında, onun texniki imkanlarının üstünlükləri barədə 1927-1930-cu illərdə mətbuatda "Radio nəzəriyəsi" adlı yazılarını çap etdirir. Radio yaradıcılığının nəzəri problemlərindən bəhs edən bu mənbə alman təcrübəsini öyrənmək baxımından əhəmiyyətli sayılıb.

Alman radiosunun təcrübəli əməkdaşlarının iş prinsipləri hələ ötən əsrin əvvəllərindən nəinki, bütün dünya, həm də keçmiş SSRİ alimlərinin diqqətini cəlb edib. A.Şerel "XX əsrin Audiomədəniyyəti" adlı kitabında yazır: "Radio nəzəriyyəsinə aid olan Kolbanın kitabı və Lampenin "Radioqavrayış" əsəri o dövrün maraqla izlədiyi nəşrlərdən biri idi. Moskvada çap olunan "Danışır SSRİ" və digər nəşrlərdə Kolbanın radio yaradıcılığı barəsində deyilən fakirlərinə əsaslanaraq radioincəsənətin üç istiqaməti müəyyən edilimişdir.

Birincisi, sözlə portret yaratmaq ustalığıdır ki, əsas hadisələr təbii canlanmalı, "sadəlövh təbiilik" prinsipində alman istiqaməti- "helbird" (səslərin şəkili) üsuluna müraciət olunmalıdır.

İkinci, radiopyesin mətninin, sözlərin səlist, başadüşülən tərzdə ifası, yəni vebralizm-psixoloji sindromu, danışığın insan şüuruna öz əksini hopdurması müvəffəqiyyətlə icra edilməlidir.

Üçüncü isə melodik amilə üstünlük verilməli, ritm və ədəbi mövzunun ahəngdarlığı pozulmamalıdır" (2, 115). Yəni danışıqdan sonra verilən musiqi düzgün seçilməli, hər ikisi bir-biri ilə bağlılıq təşkil etməlidir...

1937-ci ildə tanınmış kino rejissoru S.Eyzenşteynin "Filmin tonmontajı" məqaləsində radioda süjetin dolğun olması üçün montajın güclü kompozisiya olduğu, epizodun sintaksisində mühüm əhəmiyyət daşıdığı bildirilir. Onun fikrincə dinləyiciyə təsir və əks-təsir metodları prosesdə əsas götürülməli, kadrları birləşdirən rejissorun yaradıcılığında estetik yanaşması hiss

olunmalıdır (3, 50).

Rus tədqiqatçılarının fikrincə 30-cu illərdə sovet rejissoru, aktyor və pedoqoqu B. Meyerholdun söz, musiqi və fon səsləri vəhdətinin radioda tətbiqi radio sənətinin inkişafına öz tohfəsini verib. Almaniyalı E.Piskatorla əməkdaşlığı nəticəsində 1931-1934-cü illərdə müxtəlif sənət əsərlərinin radio versiyaları işlənir. 1938-ci ilə A.S.Puşkinin "Su Pərisi" əsəri Meyerhold təcrübəsini sübut edən ən gözəl və orijinal üslubda işlənmiş qiymətli radio işidir (4, 6).

Ümumittifaq radiosunda 20 il təcrübəsi olan bir sıra verilişlərin yaradıcısı və "Musiqi Mediası" adlı beynəlxalq elmi-tədqiqat elektron jurnalın rəhbəri olan M.V.Bıskonun "Radio verilişlərinin nəzəri əsasları" kitabında tarix və nəzəriyyə, texnoloji inkişaf və musiqi mədəniyyətinin inkişafı, radioreportyor, radiorejissor, proqram və efir direktorları üçün xüsusi təlimatlar öz əksini tapıb.

Radiopublisistika haqqında V.Q.Kovtun, V.P.Oleynik, O.Kusenko, Борев, Бараневич, A.Гикиш, O.Kudenko, L.Ceri, İ.Trikkel, N.A.Sıçina, V.V.Smirnov, M.K. Barmankulov, K.Q.Xaraidze, İ.V.Kuznetsov, L.Ş.Vilçek, Azərbaycan alimlərindən N.Əhmədli, Q.Məhərrəmli, Y.Əlizadə, N.Xudiyev və başqaları elmi tədqiqat işləri aparıblar.

Professor V.Y.Zdoroveqa "Jurnalist yaradıcılığı, nəzəriyyə və təcrübə" dərsliyində yazır ki, müxtəlif auditoriya sahibləri olan oxucu, tamaşaçı və dinləyici üçün jurnalistin hansı janrda yazması maraqlı deyil. İnsanların çoxu janrın nə olduğunu bilmir. Onu əsas maraqlandıran cəhət informasiyanın maraqlı olmasıdır. Xəbər isə o zaman maraqlı olur ki, fakt və hadisələr informasiyanın özəyini təşkil etsin (5, 49).

Verilişin, radio mətninin maraqlı olması jurnalistin öz peşəsinə hansı tərzdən yanaşması ilə bağlıdır. Bolqar tədqiqatçısı K.Stançev radiojurnalistikada 7 əsas komponentin işlənməsini zəruri sayır. Onun fikrincə hadisənin, faktın təsviri, əhəmiyyəti, məsələnin həlli yolları, ədəbi formaya salınması, qeydlərin xarakteri, materialın öyrənmə üsulları, nəzəri işıqlandırma, materiallın həcmi və nəhayət yazı keyfiyyəti radio jurnalistini populyarlaşdıra bilər (6).

Filologiya elmləri namizədi L.V.Qriqoryeva yazır: "Hər bir dövrün radiopublisistikasında jurnalistin yaradıcılıq şərtlərini müəyyənləşdirən yeni texnologiyanın mənimsənilməsi prosesi əsas rol oynayıb. Onun fikrincə radioreportaj - yayımın bütün xüsusiyyətlərini özündə birləşdirən və radiomətnlərdə istifadə edilən əsas janrdır. Bu janrın operativliyi, sənədli, dəqiq, dinamik, emosional olması, əməkdaşın fərdi yaradıcılıq imkanlarını nümayiş etdirmək bacarığı və auditoriyaya səs effektləri ilə təsir etmək ustalığı radiopublisistikada vacib amildir. Radioreportajın təşəkkül tapması və inkişafı akustik imkanların tədricən mənilmsənilməsi ilə xarakterizə olunan uzunmüddətli prosesdir (7).

Radioreportajda, jurnalist yaradıcılığında və radiopublisistika əsərlərinin hazırlanması zamanı psixoloji faktora subyektiv cəhətdən xüsusi diqqət yetirən

müəllif yaradıcılığın xüsusiyyətlərini kanalın (kommunikasiyanın) özünəməxsusluğu və səsləndirilən mətnlərin dinləyici psixologiyasına təsiri ilə əlaqələndirir. Alimin fikrinə görə əgər qəzet, nəşr - zamanın yazılı tarixidirsə, radiopublisistika - böyük, əhəmiyyətli, gündəlik hadisələrin insanın vasitəsi ilə təqdim edilən səsli tarixidir.

Hər bir radio publisisti janrlardan lazımınca faydalanır, eyni mövzu üzrə müxtəlif mətnlər yazılır. Deməli, radioreportajın tarixi həm də jurnalistlərin fərdi yaradıcılıq xüsusiyyətlərinin mənimsənilməsi tarixidir. Mətndə özünüifadənin, özüməxsusluğun təzahürü hiss olunur və publisistika əsərinin təkrarsızlığı, bənzərsizliyi yaradıcı şəxsin mövzuya fərdi yanaşma keyfiyyətlərini üzə çıxarır.

A.Q.Kiselyov yazır ki, "ifadə vasitələri olan söz, musiqi, səs-küylər və montaj bütövlükdə radiopublisistikanın əsasını təşkil edir. Jurnalist yaradıcılıq prosesində bu ifadə vasitələrini bir mövzunun həllinə səfərbər edir. Peşəkar jurnalistin rejissorla yaradıcılıq prosesində fikir və ideyaları üst-üstə düşəndə nəticə gözəl alınır" (8).

Radiopublisistikada birinci yerdə dayanan söz efir danışığının başlıca predmetidir. Söz ictimai fikrə yönələndə, dinləyicinin asanlıqla başa düşdüyü və cəmiyyəti narahat edən mövzunun müzakirəsi onun əhatə dairəsini genişləndirir. B.H.Şein "Belorus radiosu 85 (1925-2010)" adlı kitabında yazır ki, "radiopublisistikanın yaranması üçün Böyük Vətən müharibəsi illərində stimul yaranmışdır. Həmin vaxt müharibə dövrünün şəraitinə uyğunlaşmalı, ordunun döyüş ruhunun artırılması, ön və arxa cəbhənin birliyini nümayiş etdirən, hərbi əməliyyatlar barədə əhalinin məlumatlanmasına xidmət edən proqram və verilişlərin hazırlanması radioda xüsusi sənətkarlıq tələb edirdi" (9, 22). Müharibə dövründə radioda sözün daha güclü dəyər alması, tələb olunan müsahibə, şərh, reportaj və bədii-musiqili kompozisiya janrlarının əsasında radiopublisistikanın yeni tarixi dövrü formalaşdı. Bu dövrdə Sovet radiopublisistikasının yeganə amalı düşmənlə mübarizəyə həsr olunmuşdur.

Əfsuslar olsun ki, Azərbaycan müharibə təhlükəsi ilə üzləşəndə, Qarabağ uğrunda mübarizə apardığımız illərdə ölkəmizdə sovet radio məktəbinin ənənəvi təcrübəsindən nümunə götürülmədi. Vaxtilə sovet radio strukturunda təmsil olunan və hərbi publisistikası ilə "sovet modeli"ni zənginləşdirən Azərbaycan radiosu lazım gələn anda öz milli savaşı uğrunda söz deməyə acizlik çəkdi, qalib olmaq əzmini nümayiş etdirə bilmədi. 1994-cü ildə Azərbaycan radiosunda hərbi vətənpərvərlik redaksiyasının yaradılmasına baxmayaraq, bu 20 ildə heç bir salnamə olacaq veriliş yoxdur. Radio əməkdaşlarının cəbhə bölgəsindən hazırlanmış ara-sıra reportajları hərbi salnamə üçün yetərli deyil. Döyüşən əsgərdən yox, şəhid olan oğlanlarımızdan danışıldı. Efirdə ağlaşma qurub, vay-şivən salan verilişlərə üstünlük verildi. Bəlkə də bu yolla düşmənə qarşı nifrət oyatmaq fikrində idik. Ancaq sovet hərbi radiopublisistikasında olan inam hissi, ab-hava başqa idi...

**ӘDӘBİYYAT**

1. Брехт о кинематографе (публикация В.Клюева) // Вопросы киноискусства. в. II. М., 1968, с. 21
2. Шерель А.А. Аудиокультура XX века. М., 2004, с. 331
3. Из творческого наследия Эйзенштейна С.М. М., 1985, с. 50.
4. Документы РГВА о трагической судьбе В. Э. Мейерхольда // Вестник архивиста: журнал. М., 2008, № 6.
5. В.Й. Здоровега у підручнику "Теорія і методика журналістської творчості" [с. 38–49]. Львів: 2004, 268 с.
6. Станчев Ст. К. Теория и практика печати. София, 1964. 465 s.
7. Григорьева Л.В. Радиорепортаж в программах местного вещания: на примере Ставропольского краевого радио. диссертация ... кандидата филологических наук : 10.01.10 Ростов-на-Дону, 2007 160 с.
8. Киселёв А.Г. Теория и практика массовой информации. М., 2009, с. 431
9. Шеин В.Н. Радио Беларуси 85 лет (1925 – 2010) Современная радиожурналистика. Минск, 2010, с. 138.

## ИССЛЕДОВАНИЯ АУДИОПУБЛИЦИСТИКИ

**Ш.М.КУЛИЕВА**

**РЕЗЮМЕ**

Благодаря возникновению радио, аудиопублицистика стала центром внимания. Многие ученые до сих пор выдвигают версии о том, какой из видов информационных услуг будет востребован в будущем. Однако радио положило основу научно-техническому прогрессу, а так же стало одним из основных средств для получения информации. В наши дни радио является основой многих современных технологий. И по сей день, радио отличается своей публицистикой, основами прямого эфира и разговорной речью. Публицистические сообщения отличаются документальностью, невымышленностью фактического материала. Публицистические сообщения подразделяются на виды: информационная публицистика, аналитическая публицистика и художественная публицистика. Каждый из видов публицистических сообщений имеет несколько жанров.

**Ключевые слова:** исследования аудиопублицистики, основы радио, основной объект радио, язык эфира, первейший источник информации

## A THEORETICAL RESEARCH ON THE AUDIO PUBLICITY

**Sh.M.GULIYEVA**

**SUMMARY**

The scientists are always interested in the discovery and development of the radio. They put forward different ideas. The radio is the first means of communation. Today the radio is the base of modern technology too. The radios are different for their publicity, live broadcast communation and spoken languages. There are 3 species of the radio journalism: İnformative publicity, Analytical publicity and Art publicity. Each publicity is divided into different genres. Prominent scientists have writlen many books about the radio publicity in Azerbaijan.

**Key words:** the first researches of audio publicity, Radio theory, the object of the research, essential language, the first source of information